BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2012*

**UOT 330.101:330.837:330.8**

# İQTISADIYYATIN MİLLİ MODELLƏRİ VƏ SƏMƏRƏLİLİK GÖSTƏRİCİSİNİN ƏLDƏ EDİLMƏSİNDƏ ONLARIN ROLU

**M.Y.HƏMİDOVA**
***Bakı Dövlət Universiteti***
***nargiz@mail.ru***

*Məqalədə milli və regional modellərin formalaşmasına təsir edən amillər nəzərdən keçirilir. İqtisadiyyatın milli modelləri – stabil institutlar çərçivəsində inkişaf edən suveren dövlətin iqtisadiyyatıdır. Ona görə də, iqtisadiyyatın modellərinin meyarlar qismində tipoloji təsnifi zamanı obyektiv verilən resursların və subyektiv olaraq seçilən institutların milli xüsusiyyətlərindən istifadə edilir.*

**Açar sözlər :** iqtisadi model, insan kapitalı, sosial kapitalı, insan potensialının inkişaf indeksi

İqtisadi model-iqtisadi hadisənin rəsmiyyətə salınmış təsviridir ki, bunun da strukturu həm obyektiv xüsusiyyətlərlə, həm də tədqiqatın subyektiv məqsədli xarakteri ilə müəyyən olunur.

Modelin yaradılması məlumatın müəyyən hissəsinin itirilməsi ilə bağlıdır (şəkil 1).




**Şək. 1.** Modelin və real aləmin qarşılıqlı əlaqəsi

Bu ikinci dərəcəli hadisələrdən təcrid olunmağa, sistemin əsas elementlərinə və onların qarşılıqlı əlaqələrinə diqqəti cəmləməyə şərait yaradır. Modelə hazır halda daxil olunan məlum kəmiyyətlər *ekzogen*, qarşıya qoyulan vəzifələrin həlli zamanı model çərçivəsində alınan kəmiyyətlər isə *endogen* adlanır. Modelin obyektiv iqtisadi həqiqətlə əlaqəsi ikilidir: bir tərəfdən, model real aləmi əks etdirir, şərti olaraq onun təcəssümüdür, digər tərəfdən

isə, qarşıya qoyulan məqsədlərə uyğun olaraq onun başqa şəklə salınmasına xidmət edir. Ona görə də, modelin qurulma prosesində onun konkretləşməsi və dəqiqləşdirmələr aparılır.

Modelləşmə prosesinə daha ətraflı nəzər yetirək. Modelin qurulma prosesi bir neçə mərhələni keçir (şəkil 2).




**Şək. 2.** Modelin qurulması prosesinin mərhələləri.

Modelin qurulma prosesi bir qayda olaraq, seçim xarakteri daşıyır. Ona görə də, birinci mərhələdə modelləşməyə məruz qalacaq prosesin müşahidələrinin seçimi baş verir. Orijinal problemin axtarışında və təqdim olunmasındakı uğur bir sıra amillərdən asılıdır. Bunların sırasında intuisiya, tədqiqatçının şəxsi təcrübəsi, hətta uğur da sonuncu rolu oynamır.

Xülasə olunmuş hipoteza əvvəlcə qeyri-formal model formasında tərtib olunur. **Qeyri-formal model** - elə modeldir ki, izah edən və izah olunan dəyişənlər kifayət qədər dürüst müəyyən olunmayıb. Bu mərhələdə tədqiqatçı müxtəlif fərziyyələri nəzərdən keçirir və onlardan hansının mütləq olduğunu, hansının isə nisbətən artıq xarakter daşıdığını anlamağa çalışır.

**Formal model** - elə modeldir ki, burada bütün dəyişənlər riyazi cəhətdən dürüst müəyyən olunur. O, üsulların standart yığımını nəzərdə tutur və onun mümkün xülasələri proqnoza məruz qalır. Bu proqnozun mütləq reallaşacağı demək deyil, amma tədqiqatın məqsədləri, vasitələri, alətləri artıq dəqiq müəyyən olunur. Məhz bu mərhələdə çoxsaylı səhvlər mümkündür, belə

ki, qeyri-formal modelin formal modelə çevrilməsi məlumatların müəyyən hissəsinin itirilməsi və riyazi aparatda onun məzmununun qeyri-adekvat müəyyənliyi ilə bağlıdır. Riyazi aparatın özü qeyri-formal modelə qeyri-adekvat ola biləcək müəyyən fərziyyələri nəzərdə tutur (məsələn, seçicinin səmərəliliyi, onun üstünlük verdiklərinin daimiliyi və s.).

Formal modelin riyazi işlənmə mərhələsi müxtəlif metod arsenalını (məntiqi, oyun, riyazi, ehtimal və s.) özündə cəmləyir. Bu mərhələ müxtəlif siyasi və iqtisadi vəziyyətlərin həlli üçün eyni riyazi vasitələri istifadə etməyə, standart riyazi aparat əsasında təkrarlanmayan nəticələr əldə etməyə imkan verir. Ona görə də, onların adekvat interpretasiya problemi yaranır. Bu qeyri-formal modeli ifadə edən və onu dəqiqləşdirən və ya inkişaf etdirən müşahidə-lərlə onları müqayisə etmək məcburiyyətində qoyur. Və ya əksinə, biz ilkin fərziyyəni genişləndirib, onu daha ümumi nəzəriyyə edə bilərik. Bu cür müqayisələr parametrik qiymətləndirməni dəqiqləşdirir və daha dürüst empirik yoxlamanı hazırlayır, bu da modelləşmənin son addımı kimi çıxış edir.

Empirik yoxlama sərbəst ekonometrik modelin yaradılması ilə tamamla-na bilər. Amma empirik yoxlama həmişə lazım olmur. Tədqiqat universal nəzəri modelin yaranması ilə tamamlana bilər ki, bu da özlüyündə müəyyən proqnoz qüvvəsinə malik olur. Hər halda, real proqnozları tərtib etməyə imkan verən modellər politoloq və iqtisadçılar arasında daha məşhurdur. Təəssüflər olsun ki, əksər siyasi proseslərdə təsadüfü element çox böyük rol oynayır, bu da bəzən yaxşı tərtib olunan proqnozları heçə endirir.

Ona görə də, modellərin lazım olub-olmaması sualı yaranır. Müasir elm-lazımdır deyir. Ona görə də, onun üstünlüklərini şərh edək:

- Birincisi, model hadisələri əhəmiyyətli dərəcədə sadələşdirərək, əsas əlamətləri ikinci dərəcəli olanlardan, daxilini xaricidən, daima təkrar olunanları təsadüfü olandan ayırmağa imkan verir;
- İkincisi, model cəmiyyətdə baş verən hadisələri rəsmiyyətə salmağa imkan verir;
- Üçüncüsü, modellər onların yaranmasına qədər təxmin etdiyimiz qanunauyğunluqları, bu və ya digər hadisələrin strukturunu daha dürüst müəyyən etməyə imkan verir. Riyazi proqramlaşmanın məhz bu xüsusiyyəti dəqiq proqnozlar tərtib etməyə imkan verir.
- Dördüncüsü, modelləşmə daha yüksək səviyyəli qarşılıqlı əlaqələri müəyyən etməyə, müxtəlif hadisələrin ümumi cəhətlərini görməyə şərait yaradır. Bu milli iqtisadiyyat nəzəriyyəsində yaranan modelləri qarışıq sahələrdə, digər sahələrdə yaradılan modelləri isə milli iqtisadiyyat nəzəriyyəsində istifadə etməyə imkan verir. Ekonometrik təhlil metodlarının nümunəsində bu daha aydın görünür.

**İqtisadiyyatın milli modelləri** – stabil institutlar çərçivəsində inkişaf edən suveren dövlətin iqtisadiyyatıdır [1]. Əgər müəyyən ölkə qruplarında eyni (və ya oxşar) sosial-iqtisadi institutlar istifadə olunursa, iqtisadçılar *regional iqtisadi modellərdən* danışırlar. Məsələn, nəinki İsveç, həm də Skandinaviya iqtisadi modeli haqqında danışılır, belə ki, bütün Skandinaviya ölkələrində sosial-iqtisadi inkişafın bəzi oxşar xüsusiyyətləri var (əsasən, güclü dövlət tənzimlənməsi, bu da hər şeydən əvvəl, sosial siyasətə əsaslanır).

İqtisadiyyatın milli modellərindən ***keçid (tranzitiv) iqtisadiyyatını*** fərqləndirmək lazımdır, belə ki, bu zaman təsərrüfat həyatında "oyun qaydaları" hələ müvazinətləşməyib, köhnə institutlar artıq dağılıb, yeniləri isə hələ formalaşmayıb. Məsələn, Azərbaycan iqtisadiyyatına 1980-ci illərdə inzibati-amirlik iqtisadiyyatının sovet milli modelinin bir hissəsi kimi baxmaq olar, amma 1990-cı illərdə Azərbaycan iqtisadiyyatı keçid dövrünü yaşayırdı-bu dövr Azərbaycan milli iqtisadi modelinin formalaşma yollarının uzun axtarış dövrünün başlanması idi.

Müasir dövrdə qarışıq iqtisadiyyat paradiqması əsasında müxtəlif ölkələrin iqtisadi institutlarının yaxınlaşmasına meyl müşahidə olunur. Bu paradiqmanın əsas ideyası mərkəzləşmiş tənzimlənmənin və bazar özünütəşkili mexanizmlərinin əlaqələndirilməsi zərurətinin təqdir edilməsindən ibarətdir. Amma bu ideyanın təqdir olunması iqtisadiyyatın milli modelinin səmərəli olacağına təminat vermir.

Milli iqtisadiyyatın səmərəli olması üçün bazar iqtisadiyyatının tənzimlənməsi üzrə bir çox problemləri həll etmək lazımdır, bu da iki əsas istiqamət üzrə müəyyənləşir:

- İqtisadiyyatın müxtəlif sahələrində dövlət tənzimlənməsi və bazar özünütənzimləmənin optimal nisbəti necədir?
- Təsərrüfat həyatının mərkəşləşdirilmiş tənzimlənməsinin müxtəlif aktorları-mülkiyyətçilər və şirkət menecerləri, sahibkarlar assosiasiyaları, müxtəlif hökumət agentlikləri, vətəndaşlıq cəmiyyəti institutları bir-birləri ilə necə qarşılıqlı əlaqədə olmalıdır?

"Bazarın gözəgörünməz əli" universal qanunauyğunluqlar yaradır, amma bazarı şüurlu tənzimləmə ilə tamamlamaq zərurəti milli iqtisadi inkişaf yolunun seçimi zamanı böyük çətinliklərə gətirib çıxarır. İş ondadır ki, adı çəkilən iki əsas tənzimləmə probleminin universal həlli yoxdur (baxmayaraq ki, onların həllinə ümumi yanaşmaları dürüst ifadə etmək üçün cəhdlər göstərilir). Demək olar ki, bütün ölkələrin iqtisadiyyatı bazarın və mərkəzləşdirilmiş

---

[1] İqtisadiyyatın milli modellərinin müzakirəsi zamanı bəzən "milli" və "etnik" anlayışlarını qarışdırırlar. Müasir ictimaiyyətdə millətə eyni vətəndaşlıqla (eyni dövlətin vətəndaşları) birləşən insan birliyi kimi baxılır. Ona görə də, müasir dövrdə, məsələn, Britaniya və ya Rusiya milli iqtisadi modelləri haqqında danışmaq olar, amma şotland və ya rus milli modeli haqqında danışmaq olmaz. Eyni zamanda, əgər ölkə daxilində sosial-iqtisadi institutlarına və inkişaf meyllərinə görə keyfiyyətcə fərqlənən ərazilər, vilayətlər varsa, milli model daxilində iqtisadiyyatın regional modelləri haqqında danışmaq olar.

tənzimləmənin ahənginə əsaslanır, amma bəziləri vətəndaşlara sabit yüksək həyat tərzi təmin edən, yüksək səmərəli milli iqtisadi modelə malikdir.

Milli və regional iqtisadi modellərin formalaşmasına iki qrup amil təsir göstərir:

- Millətin sərvətini (onun kapitalını) formalaşdıran obyektiv resurs potensialı;
- Cəmiyyət tərəfindən qeyri-formal və formal institutların subyektiv olaraq şüurlu və ya kortəbii seçimi, bunlara da uyğun olaraq, o, malik olduğu obyektiv resurs potensialını istifadə edəcək.

Ona görə də, iqtisadiyyatın modellərinin meyarlar qismində tipoloji təsnifi zamanı obyektiv verilən resursların və subyektiv olaraq seçilən institutların milli xüsusiyyətlərindən istifadə edirlər.

İqtisadiyyatın milli modelini yaradarkən dövlət, biznes və vətəndaş cəmiyyəti həmişə obyektiv olaraq malik olduğu resurslarla məhdudlaşır. Bu resurs məhdudiyyətini istehsal imkanları əyrisi modelinin köməyilə təhlil edirlər.

**İstehsal imkanları əyrisi**-müxtəlif iqtisadi rifahların istehsallarının potensial olaraq nail olunan ahəng çoxluğudur ki, bunları da cəmiyyət bütün mövcud olan resurslardan daha səmərəli istifadə etməklə, realizə edə bilər. Mövcud resurs məhdudiyyəti ilə cəmiyyət prinsip etibarilə istehsal imkanları əyrisi hüdudundan çıxa bilməz. Ona görə də, cəmiyyətin inkişafının idarəolunma bacarığı:

- istehsal imkanları sərhədini düzgün müəyyən etmək;
- bu sərhəddə potensial mümkün kombinasiyalardan ictimai rifah səviyyəsini maksimallaşdıranı seçmək (nəinki hal-hazırda, həm də uzaq perspektivdə);
- cəmiyyəti nəzərdə tutulan kombinasiyaların nail olunmasına səfərbər etmək bacarığından ibarətdir.

İstehsal imkanları əyrisi modelini sadələşdirilmiş sxemin köməyilə nümayiş etdirirlər ki, bu da ancaq təsərrüfat fəaliyyətinin iki alternativ növünün mövcudluğunu nəzərdə tutur (şəkil 3).

Misal üçün, neft ehtiyatları ilə zəngin olan və eyni vaxtda xarici turistlərin cəlb olunması üçün böyük potensiala malik bir ölkəni nümunə götürək.




**Şək. 3.** İstehsal imkanları əyrisi milli iqtisadiyyatın resurs məhdudiyyətləri modeli.

Əgər resurslar qeyri-səmərəli istifadə olunursa (pis təşkil olunmuş geoloji-kəşfiyyat işləri, turistlərin ölkəyə cəlb olunması üçün təbliğat aparılmır və s), onda milli iqtisadiyyat istehsal imkanları əyrisindən aşağı olacaq (məsələn, A nöqtəsi). Maksimal səviyyədə bütün resurslar səfərbər olunsa belə, ölkə qısa vaxt ərzində qrafikdəki əyrinin sərhədlərini çıxa bilməyəcək (məsələn, E nöqtəsi ilə müəyyən olunan istehsal kombinasiyasını təmin etmək). Ölkədə mövcud olan bütün resursların daha səmərəli istifadəsi ilə milli iqtisadiyyat istehsal imkanları əyrisinin istənilən nöqtəsinə uyğun gələn istehsal buraxılışını təmin edə bilər. Problem - resursların neftin hasilatı üçün cəmlənməsinin uyğun gəldiyi (C nöqtəsi), və ya resursların əsasən turizmin inkişafı üçün istifadə olunduğu (B nöqtəsi), və ya hər iki sahənin təxminən eyni səviyyədə inkişaf etdiyi (D nöqtəsi) kombinasiyalardan hansının millətin rifah səviyyəsini maksimallaşdırmağa imkan verə biləcəyini müəyyən edə bilmək bacarığından ibarətdir.

Optimal istehsal kombinasiyalarının seçim problemi iki amil səbəbindən mürəkkəbləşir. Bir tərəfdən, nəinki cari, həm də gələcək xərclərin maksimallaşdırılmasına səy göstərmək lazımdır. Tarixi təcrübə göstərir ki, millətin rifah səviyyəsini dərhal maksimallaşdırmağa cəhd göstərmək uzunmüddətli dövrə onun artımını dayandıra bilər. Digər tərəfdən, seçimi bütövlükdə cəmiyyət yox, ancaq ayrı-ayrı imtiyazlı qrupların rifah səviyyəsinin artımında maraqlı olan siyasi elita edir.

Millətin istehsal imkanları əyrisini müəyyən edən resurslar üş qrupa bölünə bilər: təbii, ictimai və ümumi istehsal qüvvələri (1, 89).

***Təbii istehsal qüvvələri dedikdə***-nəinki bizi əhatə edən təbiətin malik olduğu resursları (obyektiv təbii istehsal qüvvələri), həm də insanın özünü bioloji cəhətdən şərtləndirən resurslar (subyektiv təbii istehsal qüvvələri) başa düşülür.

Bəşəriyyət tarixinin erkən mərhələlərində təbii istehsal qüvvələri daha üstün idi. *Homo sapiens*-in formalaşması dik yerimək, mürəkkəb beyin, qıvraq əl və nitq üçün sərfəli olan qırtlağın formalaşması ilə əlaqədardır. Planetin qədim sivilizasiyalarına nəzər yetirsək, onların yerləşməsi əkinçilik, həmçinin, mədəni bitkilər və əhliləşdirilə bilən heyvanlar üçün əlverişli olan şərtlərin mövcudluğu ilə sərt formada determinantlaşıb. Planetin təbii şərait olmayan regionlarında isə (məsələn, Avstraliya) cəmiyyət on min illər ərzində daş dövrünün səviyyəsindən kənara çıxa bilməmişdir.

Bəşəriyyətin sonrakı inkişafında süni yaradılan resurslar-maddi və mənəvi mədəni elementlər böyük əhəmiyyət kəsb etdi.

Cəmiyyətin inkişafında həm obyektiv (maddi-əşya), həm də subyektiv (qeyri-material "oyun qaydaları", sosial əlaqələr) ictimai istehsal qüvvələri böyük rol oynayır. Uzun müddət iqtisadçılar ( xüsusən sovet marksistləri) istehsal qüvvələrinin inkişafını çox sadəliklə, "dəyirman feodalizmi, buxar maşınını isə kapitalizmi yaratmışdır" kimi şərh etmişlər. Nəticədə isə, bütün ölkələrdə eyni əmək alətləri istifadə edildiyi halda, nə üçün müxtəlif rifah səviyyəsinin əldə olunduğu cavabsız qalırdı. Hazırda etiraf olunur ki, insanlar

tərəfindən yaradılan institut və təşkilatlar guya tamamilə istehsal qüvvələrindən asılı olan “istehsal münasibətləri” deyil. İnstitut və təşkilatların özü mühüm iqtisadi resursdur ki, digər resursların da istifadə səmərəliliyi bunlardan xeyli asılıdır.

Postindustrial cəmiyyətin təşəkkülü şəraitində informasiya ümumi istehsal qüvvəsi kimi daha çox rol oynamağa başlayır. Söhbət digər istehsal amillərini daha səmərəli əlaqələndirməyə kömək edən biliklərdən gedir. Bu biliklər həm əmək alətlərinin istifadə texnologiyasına (məs., ixtira üçün patent), həm də insan və təşkilatlardan istifadə texnologiyasına (menecment, loqistika, marketinq qəbulu) aiddir. Biliklər qeyri-maddi resurs kimi özgəninkiləşdirilmədən ötürülə bilmə imkanı ilə xarakterizə olunur.

İqtisadiyyatın istənilən milli modelinin inkişaf imkanlarını determinantlaşdıran iqtisadi resurslar sistemini ənənəvi beş resursun –torpaq, əmək, kapital, sahibkarlıq və informasiyanın köməyilə də təsvir etmək olar. Müasir elmi ədəbiyyatda bəzən “iqtisadi resurs” anlayışı “kapital” anlayışı ilə əvəzləşdirilir və onda istehsal qüvvələri sisteminin hər elementinə kapitalın xüsusi növü kimi baxılır (cədvəl 1).

Cədvəl 1

**İqtisadi inkişaf amillərinin (istehsal qüvvələrinin) növləri**

| | |
|---|---|
| Təbii istehsal qüvvələri (təbiətin bəxş etdiyi) | Subyektiv (insanın özünün təbiəti) - “əmək”(fizioloji kapital) |
| | Obyektiv (ətraf təbiət)-“torpaq” (təbii kapital) |
| İctimai istehsal qüvvələri (insan və ya lokal kollektiv tərəfindən yaradılan və istifadə olunan) | Subyektiv (institut və təşkilatlar) - “sahibkarlıq” (sosial kapital) |
| | Obyektiv (əmək alətləri) –“kapital” (fiziki kapital) |
| Ümumi istehsal qüvvələri (bəşəriyyət tərəfindən yaradılan və istifadə olunan) | “İnformasiya” (insan kapitalı, informasiya kapitalı) |

Millətin istehsal imkanlarını müəyyən edən resurslar sistemində təbii resurslar-bizi əhatə edən təbiətin resursları əsaslı rol oynayır.

Bəşəriyyətin bütün sivil tarixi ərzində təbii resursların əhəmiyyəti azalmağa meyllidir. Müasir inkişaf etmiş ölkələr arasında qədim sivilizasiyaya aid olan elə bir ölkə yoxdur ki, özünün səmərəli təbii şəraitinə görə inkişafda “ağalıq”etsin. Ən çox inkişaf etmiş ölkələrdən, məsələn, faydalı qazıntılara malik olmayan və yüksək seysmik şərait sayəsində daima fəlakətlərin baş verdiyi Yaponiyada demək olar ki, faydalı qazıntı yoxdur. Amma qonşu Çində əkinçilik üçün sərfəli şərait Yaponiyaya nisbətən təxminən 2 min il əvvəl yaranmışdır: amma müasir ÇXR nisbətən kasıb ölkələr sırasındadır.

Amma onu da qeyd etmək lazımdır ki, müasir cəmiyyətdə təbii resurslar əhəmiyyətli rol oynayırlar. Amma onların sosial-iqtisadi inkişafa təsiri daha da

çətinləşib: əgər bəşəriyyət tarixinin ən erkən mərhələlərində təbii resursların bolluğu birmənalı olaraq dövlətin sərvətinin artmasına səbəb olurdusa, indi artıq təbii resurslar əksinə, milli rifah səviyyəsinin aşağı düşməsinə gətirib çıxara bilər. Bu paradoksal hal “**təbii resursların lənəti”** adını almışdır.

Millətin təbii resurslarla sərvəti və yoxsulluğunun paradoksal vəhdətini iki nəzəriyyənin-renta axtarışı və “holland xəstəliyi” nəzəriyyələrinin köməyilə izah edirlər.

Renta axtarışı-yeni gəlirlərin yaradılmasına yox, əvvəllər yaradılan gəlirlərin yenidən bölgüsünə yönəlmiş fəaliyyətdir. Ölkədə təbii sərvətlər olmadıqda, sərvəti istehsal fəaliyyəti ilə əldə etmək lazım gəlir, bunun da rifahı əksər vətəndaşlara nəsib olur. Əgər ölkə təbii resurslarla zəngindirsə, onun biznesmen və siyasətçiləri istehsalla yox, daha çox renta axtarışı ilə məşğul olurlar.

Məsələn, Anqola və ya Liberiyada almaz necə deyərlər, ayağa dolaşırsa, siyasətçi və sahibkarlar nə üçün milli sənayeni inkişaf etdirməlidirlər? Ucuz qeyri-peşəkar işçilərin əməyindən istifadə edib, “hazır məhsulla”həm rəsmi, həm də qaçaqmalçılıq yolu ilə ticarət etmək daha asandır. Təbii sərvətlərin ixracından yüksək gəlirlərin əldə edilməsinin asanlığı investisiyaları istehsalın inkişafına yox, hakimiyyət uğrunda bomba üçün, yəni “yüngül pulların” yenidən bölgüsü üçün stimullaşdırır. Ona görə də, Qərbi Afrikada onillərlə vətəndaş müharibəsi davam edir, bu da əsasən resursların ixracından əldə olunan gəlirlərə nəzarət üçün müxtəlif qruplaşmaların mübarizəsi ilə izah olunur. Bu regionun ölkələrində korrupsiya çox yüksək səviyyədədir. Nəticədə təbii resurslar sosial fəlakətə çevrilir: elita varlanır, sıravi vətəndaşlar isə, yoxsulluq içində yaşayır.

Milli iqtisadiyyatın renta axtarışı deqradasiyasının qarşısını korrupsiya və kölgə iqtisadiyyatının inkişafına mane olaraq, vətəndaş cəmiyyəti institutları ala bilər. Amma “üçüncü dünya” ölkələrində bu institutlar çox zəif inkişaf edib ki, bu da renta axtarışının inkişafı üçün geniş imkanlar yaradır.

Təbii resurslarla zənginliyin ləng təsirinin daha mürəkkəb bir mexanizmi var ki, bundan da nəinki inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələr əziyyət çəkir. Bunu ilk dəfə olaraq, 1960-70-ci illərdə Niderlandın nümunəsində tədqiq etdikləri üçün, onu “holland xəstəliyi” adlandırırlar.

***“Holland xəstəliyi”*** – milli iqtisadiyyatın inkişafının ləngiməsidir ki, bu da elm tutumu az, amma gəliri çox olan resurs sektoruna iqtisadiyyatın digər sektorlarından resursların axınından irəli gəlir. Bu zaman resurs sektoru dedikdə, əsasən xaricə ixrac olunan təbii xammalın (neft, mis, oduncaq) hasilatı ilə məşğul olan iqtisadiyyatın sektotu başa düşülür.

Əgər resurs sektorunun məhsulu dünya bazarında yüksək və sabit tələbə malikdirsə, onda burada əmək haqqının və mənfəət normasının artımı baş verir. Sahibkarlar və digər sahələrdən olan işçilər resurs sektoruna keçirlər. Amma təbii resursların hasilatı özlüyündə elmi-texniki tərəqqinin inkişafına səbəb olmur. Nəticədə təbii resursların hasilatı və ixracının prioritet olaraq

üstün olduğu ölkələrdə yeni elm tutumlu sahələr (elektronika, biotexnologiya və s.) zəif inkişaf edir.

Bundan başqa, ölkə iqtisadiyyatı ixrac olunan xammalın dünya qiymətlərindən həddən artıq asılı olur, bu qiymətlərin aşağı düşməsi milli iqtisadiyyatda güclü böhran yarada bilər. Belə ki, əgər 1960-1970-ci illərdə neft ixrac edən "üçüncü dünya" ölkələri bu qrupun digər ölkələrindən nəzərə çarpacaq qədər sürətlə inkişaf edirdisə, 1980-1990-cı illərdə neftə olan dünya qiymətlərinin aşağı düşməsi ilə əksinə, hamıdan zəif inkişaf edirdilər (cədvəl 2).

Cədvəl 2

**Neft ixrac edən inkişaf etməkdə olan ölkələrdə əhalinin adambaşına düşən ÜDM-nin artımının dayanıqsızlığı**

| Ölkələr | Adambaşına düşən ÜDM-un orta illik artım tempi | |
|---|---|---|
| | 1960-1980-ci illər | 1980-1998-ci illər |
| Bütün inkişaf etməkdə olan ölkələr | 3,0 | 0,2 |
| Neft ixrac edən inkişaf etməkdə olan ölkələr | 5,2 | -2,1 |
| Digər inkişaf etməkdə olan ölkələr | 2,7 | 0,5 |

***Mənbə:*** Sezilməyən lənət//Biznesin nəzəriyyə və praktikası."Vedomosti" qəzetinin və "Smart Money" jurnalının materialları əsasında ali məktəblər üçün materiallar toplusu. 2007, №1, c.9.

Qeyd etmək lazımdır ki, zəngin təbii sərvətlərin mövcudluğu mütləq olaraq artımın və inkişafın ləngiməsinə gətirib çıxarmır. Yüksəkixsisaslı siyasi elita, hətta ilk vaxtlarda bu siyasət yüksək məsrəflər tələb etsə belə, milli iqtisadiyyatın diversifikasiyasını məqsədəyönümlü stimullaşdıraraq, renta axtarışından və "holland xəstəliyindən" yan qaça bilər. Millətin təbii sərvətlərinin nümunəvi istismarına Birləşmiş Ərəb Əmirliklərini (BƏƏ) nümunə göstərmək olar. Bu ölkədə neftdən gələn cari gəlirlər nəinki "udulur" (yəni bütün vətəndaşların yüksək həyat səviyyəsinin təmin edilməsinə xərclənir), həm də gələcək xərclər üçün xüsusi ehtiyat fonduna qoyulur, həmçinin, iqtisadiyyatın digər sahələrinin yüksəlişinə sərf olunur (ilk növbədə, turizm biznesinə). Onu da qeyd etmək maraqlı olardı ki, bu ölkədə səmərəli milli iqtisadi modelin yaradılmasına Qərb ölkələri üçün ənənəvi olan demokratik institutlar olmadan nail olunub (BƏƏ monarxiya dövlətidir).

**İnsan resursları-insan kapitalı və sosial kapital**

Müasir iqtisad elmində müxtəlif iqtisadi resursların növlərinin və əhəmiyyətinin müzakirəsi əsasən nəzəri qurucu "kapitalın" (*capital*-hərfi tərcümədə "əsas" deməkdir) köməyilə baş verir. XXI əsrin əvvəllərində, əsasən, ictimai müzakirənin daha məşhur anlayışları "insan kapitalı" və "sosial kapital" olur. Çox zaman, həmçinin birləşmiş "insan resursları" anlayışından istifadə olunur.

Müasir insan kapitalı nəzəriyyəsinin banisi amerikalı iqtisadçı Heri Bekkerdir (1930-cu ildə anadan olub). Onun əsərlərinin təsiri altında insan kapitalı kimi fərdin bilikləri, istehsal vərdişləri və əmək məhsuldarlığını artıran səbəblər başa düşüldü. Bekker sübut edirdi ki, insan kapitalına qoyulan investisiyalar (mütəxəssislərin və ixtisaslı işçilərin hazırlanması və yenidən hazırlanması) maşın texnikasının xərclərinə nisbətdə daha çox mənfəətlidir.

Amma Bekkerin təklif etdiyi yanaşmanın müəyyən çatışmazlığı var, belə ki, o, iqtisadi həyatın avtonom subyekti kimi fərdin dəqiq, məqsədəuyğun davranış paradiqmasına əsaslanır. Təsərrüfat həyatı onun yanaşma çərçivəsində məsul fərdlərin fərdi qərarlarının, bir növ "rasional Robinzonların" məcmusu kimi görünürdü. Müasir ictimaiyyətçilər həm səmərəliliyi, həm də fərdlərin fərdi davranışlarının avtonomluğunu şübhə altına alırlar. Ona görə də, Bekkerin əsərləri "insan resursları" üzrə daima yeni konsepsiyaların işlənməsini stimullaşdırırdı ki, bunlar da ayrıca insanın iradə və düşüncəsindən asılı olmayan (və ya tam asılı olmayan) baxışları əks etdirirdi (şəkil 4).




**Şək. 4.** İnsan resurslarının təsnifatı.

İqtisadçı-tarixçi Robert Fogel insanın anadan olduğu zaman əldə etdiyi və artıq itirə bilmədiyi fizioloji kapitalı ayırmağı təklif etməklə mahiyyətcə mühüm dəqiqləşmə apardı. Digər dəqiqləşməni amerikalı iqtisadçı-sosioloq olan Ceyms Koulman etmişdi ki, bu da ayrıca fərd tərəfindən deyil, bütövlükdə cəmiyyət tərəfindən yaradılan sosial kapital konsepsiyasını işləmişdir.

Sosial kapitalı resurs kimi müəyyən edən C.Koulman qeyd edirdi ki, "kapitalın digər formalarından (kapitalı maddi resursların məcmusu kimi nəzərdə tutaraq) fərqli olaraq, sosial kapital aktorlar arası əlaqələrin strukturuna xasdır. Bu nə aktorların özündən, nə də istehsal vasitələrindən asılı deyil" (3, 124). Sonradan o, göstərirdi ki, sosial kapitalın sahibi həm ayrıca fərd, həm də hər hansı bir təşkilat və ya birlik ola bilər.

Sosial kapitalın parlaq nümunəsi kimi Koulman Nyu-Yorkda almazın topdansatış ticarət bazarını göstərirdi ki, bu da bir neçə yəhudi ailəsi tərəfindən nəzarət olunurdu. Bu insanlar heç bir rəsmiyyətçilik olmadan çox qiymətli almazları öyrənmək üçün bir-birinə ötürür, əməkdaşların bunları dəyişdirəcə-

yindən və ya mənimcəyəcəyindən ehtiyat etmirlər. İş ondadır ki, qiymətqoyan-ekspertlər nəinki birgə işləyir, həm də yanaşı yaşayır, eyni sinaqoqa gedir, əsasən bir-birləri ilə kəbin bağlayırlar. Qeyri-iqtisadi xarakterli sıx əlaqələrin nəticəsində bu insanlar yüksək mənfəət gətirən iqtisadi fəaliyyətlə məşğul ola bilirlər ki, bu da əməkdaşların tam inamına əsaslanmalıdır. Əsasən sıx sosial şəbəkəyə əsaslanan etnik sahibkarlığın analoji fenomenləri demək olar ki, dünyanın bütün ölkələrində var.

Beləlklə, sosial kapitalı əmək məhsuldarlığını artıran fərdlərin qarşılıqlı münasibətlərinin normaları kimi müəyyən etmək olar. C.Koulman kapitalın üç əsas formasının fərqlərini aşağıdakı kimi izah etdi: "Fiziki kapitaldan fərqli olaraq, biz insan kapitalını sezmirik. O, fərdin mənimsədiyi bilik və vərdişlərdə əks olunur. Sosial kapitalı isə daha az hiss edirik. Belə ki, o, ancaq fərdlərin qarşılıqlı münasibətlərində mövcuddur" (4, 128). Koulmanın izahını belə tamamlamaq olar: Robinzon Kruzo məskunlaşmamış adada fiziki və insan kapitalına malik idi, amma sosial kapitalı yox idi. İndi isə, C.Çenin məşhur müəyyənliyini xatırlayaq, buna əsasən, transaksion məsrəflər-Robinzonun təsərrüfatında olmayan məsrəflər idi. Deməli, əgər fiziki və insan kapitalı transformasiya məsrəflərinin kəmiyyətini müəyyən edirsə, sosial kapital transaksion məsrəfləri müəyyən edir (kapital çox olduqca, onun məsrəfləri aşağı olur).

Cədvəl 3-də insan kapitalı ilə sosial kapital arasındakı oxşarlıq və fərqlər göstərilir:

Cədvəl 3

**İnsan kapitalı və sosial kapitalın müqayisəli xarakteristikası**

| *İnsan kapitalı* | *Sosial kapital* |
|---|---|
| Fərdin bilik, vərdiş, səlahiyyət və xüsusiyyətləri | Sosial qruplar daxilində əlaqələr, həmçinin təqdir olunmuş norma və qiymətlilər |
| Ayrı-ayrı insanlarda təcəssüm olunub | İnsan kollektivlərində cəmlənib |
| Fərd tərəfindən yaradılır və cəmlənir | Sosial qrupların və təşkilatların daxilində yaradılır və cəmlənir |
| Tam səmərəlilik, opportunizm | Məhdud səmərəlilik, altrunizm |
| İşçi kimi insanın özündə dəyişiklikləri nəzərdən keçirir | İnsanlar arasındakı münasibətlərdə iqtisadi fəaliyyətə səbəb olan dəyişiklikləri nəzərdən keçirir |

Müasir dünyada istənilən milli iqtisadi modelin daha vacib elementi məhz insan resursları hesab olunur. İqtisadi artımın və inkişafın perspektivi həlledici səviyyədə məhz onlardan asılıdır. Təcrübə göstərir ki, əgər millətin yüksək keyfiyyətli insan resursları varsa, aşağı təbii kapitala malik olsa belə, nəhəng uğurlar əldə edə biləcək (II Dünya müharibəsindən sonra Almaniya və Yaponiyada olduğu kimi). Əksinə, əgər millətin zəif insan resursları varsa, təbii və fiziki kapitalın hətta yüksək ehtiyatları onun stabil yüksək rifah səviyyəsini təmin edə bilməz (SSRİ-də olduğu kimi). Ona görə də, hazırda istehsal fondlarına qoyulan investisiyaların optimallaşma problemi insan kapitalına qoyulan investisiyaların optimallaşma problemindən geri qalır.

**Ölkələrin resurs potensialına görə tipologiyası**

Cədvəl 4-də adambaşına düşən ÜDM üzrə ölkələrin regional differensiasiyası dinamikada göstərilib. Göründüyü kimi, ölkələrin hələ XIX əsrdə formalaşmış inkişaf etmiş və inkişaf etməkdə olan kimi qütbləşməsi XX əsr ərzində əvvəlcə güclənmiş, 1970-ci ildə zirvəyə çatmış, sonra aşağı düşməyə başlamışdı; amma bütövlükdə keçən əsrdə o artmışdır.

Cədvəl 4

**Alıcılıq qabiliyyəti pariteti üzrə 2000-ci il qiymətləri ilə adambaşına düşən ÜDM-in dinamikası (min doll)**

| Ölkə qrupları | 1900-cü il | 1950-ci il | 1970-ci il | 1980-ci il | 1990-cı il | 2000-ci il |
|---|---|---|---|---|---|---|
| Bütün dünya | 1,7 | 3,0 | 5,2 | 6,2 | 6,9 | 7,8 |
| İnkişaf etmiş ölkələr | 4,4 | 8,2 | 16,1 | 20,0 | 24,8 | 28,7 |
| İnkişaf etməkdə olan ölkələr | 0,7 | 1,0 | 1,6 | 2,2 | 2,8 | 3,9 |
| SSRİ | 1.7 | 4,1 | 10,3 | 12,3 | 11,5 | 6,0 |
| İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün göstəricilərin nisbəti | 6,3 | 8,2 | 10,1 | 9,1 | 8,9 | 7,4 |

***Mənbə:*** Abramova İ.O., Fituni L.L., Sapunçov A.L. "Dünya iqtisadiyyatında və siyasətdə "törəyən" və "baş tutmayan" dövlətlər. M.2007. S.57

İnsan resurslarının təhlilindən sonra aşkar olduğu kimi, millətin resurs potensialının ənənəvi göstəriciləri mahiyyətcə müəyyən çatışmazlıqlara malikdir. Axı gəlir axınının göstəriciləri (ÜDM və MG) millətin insan və sosial kapitalını əks etdirmir. Nəticədə belə bir təsəvvür yarana bilər ki, sanki bəzi neft ixrac edən ölkələr (məsələn, Qətər və ya BƏƏ) Yaponiya və ya Almaniyaya nisbətən daha çox inkişaf edib.

Ona görə də, 1990-cı ildə pakistanlı iqtisadçı Mahbub-ul-Haqq tərəfindən BMT-nin sifarişi üzrə ***insan potensialının inkişaf indeksi*** işlənib hazırlandı. İPİİ-makroiqtisadi göstəricidir ki, əsasən millətin insan resurslarının qiymətləndirilməsi üçün nəzərdə tutulub.

İnsan potensialının inkişaf indeksi aşağıdakı üç göstəriciyə əsaslanır:

- Gözlənilən həyat davamlığı, bu 25 yaşdan 85 yaşa qədər əhalinin orta həyat davamlığı ilə ölçülür;
- Təhsil səviyyəsinin inteqral göstəricisi, bu da aşağıdakıları özündə cəmləyir:

Savadsız əhalinin payı (bu indeks 2/3 xüsusi çəki ilə təhsil səviyyəsinin inteqral göstəricisi çərçivəsində götürülür);

İbtidai, orta və ali təhsilin mümkünlüyünün birləşmiş göstəricisi-müvafiq yaş qrupunda təhsil alanların payı (bu indeks 1/3 xüsusi çəki ilə götürülür);

- Həyat tərzi, bu da əhalinin adambaşına düşən real ÜDM-la hesablanır (AQP (alıcılıq qabiliyyəti pariteti) üzrə 100-dən 40 000 dollara qədər).

1993-cü ildən etibarən BMT hər il bu indeks üzrə hesablamalarını nəşr etdirir. Əgər ölkənin indeksi 0,5-dən aşağıdırsa, onu aşağı səviyyədə inkişaf edən dövlətlərə, 0,8-dən yüksəkdirsə, yüksək inkişaflı dövlətlərə aid edirlər.

İnstitusional iqtisad elminin ən yeni işləmələrinin təsiri altında nəinki yeni göstəricilərin tətbiqi, həm də müxtəlif millətləri fərqləndirən köhnə göstəricilərin məzmununun dəyişilməsi baş verir. Xüsusən, milli sərvətin hesablanma metodikasının keyfiyyətcə yenidən dərk edilməsi baş verir: əvvəllər o, fiziki və təbii kapitalların məbləği kimi hesablanırdı, indi isə bura insan kapitalı da daxil edilir.

Xarici iqtisadçıların qiymətləndirmələrinə görə (cədvəl 5), XXI əsrin əvvəllərinə olan vəziyyətə görə, inkişaf etmiş ölkələrdə milli sərvətdə təbii kapitalın payı ancaq bir neçə faiz, fiziki kapital-20%-dən azdır, amma insan kapitalının payı 70%-i ötüb keçir.

Cədvəl 5

**Dünya ölkələrinin müxtəlif qruplarının milli sərvətinin strukturu, 2000-ci il**

| Ölkə qrupları | Əhalinin adambaşına düşən milli sərvətin kəmiyyəti, doll | | | | Milli sərvətin strukturu,%-lə | | |
|---|---|---|---|---|---|---|---|
| | Təbii kapital | Fiziki kapital | İnsan kapitalı | Cəmi | Təbii kapital | Fiziki kapital | İnsan kapitalı |
| Kasıb | 1925 | 1174 | 4434 | 7532 | 26 | 16 | 59 |
| Orta | 3496 | 5347 | 18 773 | 27 616 | 13 | 19 | 68 |
| Varlı | 9531 | 76 193 | 353 339 | 439 063 | 2 | 17 | 80 |
| Orta hesabla | 4011 | 16 850 | 74 998 | 95 860 | 4 | 18 | 78 |

***Mənbə:*** World Bank, Washington, D.C.2006

Azərbaycanda isə milli sərvətin adambaşına düşən payı kifayət qədər böyükdür, amma onun əsasında insan kapitalının payı çox aşağıdır. Azərbaycanda iqtisadiyyatın müasir milli modelləri üçün daha vacib olan kapital növünə kəskin çatışmazlıq hiss olunur.

Beləliklə, dünya ölkələrini resurs potensialı üzrə təsnifatlandırarkən, müasir iqtisadçılar millətin inkişaf etmiş və etməkdə olan bölgüsündən fəal surətdə istifadə edirlər. Bu təsnifat tarixi və statistik meyarları uyğunlaşdırır (cədvəl 6):

- İnkişaf etmiş ölkələr-bu, bir qayda olaraq, keçmiş müstəmləkəçi dövlətlərdir, onlar əsasən insan resurslarından ibarətdir;
- İnkişaf etməkdə olan ölkələr-bunlar keçmiş müstəmləkələrdir ki, adətən müstəqillik əldə etdikdən sonra da nisbətən kasıb qalmaqda davam edir, həm də onların milli sərvətində nəinki insan, həm də təbii resurslar böyük çəkiyə malikdir.

Cədvəl 6

**İqtisadiyyatın milli modellərinin dualist təsnifatlandırılması**

| Meyarlar | İnkişaf etmiş ölkələr | İnkişaf etməkdə olan ölkələr |
|---|---|---|
| Resurslarla təminat (adambaşına düşən milli sərvətlə qiymətləndirilir) | varlı | kasıb |
| Resursların strukturu | Mütləq olaraq insan resursları üstünlük təşkil edir | İnsan və təbii resurslar üstünlük təşkil edir |
| Tarixi mənşə | Keçmiş metropoliyalar | Keçmiş müstəmləkələr |

Bu dualist təsnifatlandırmanın bir sıra istisnaları var.

Təbii resursları ixrac edən bəzi "üçüncü dünya" ölkələri (hər şeydən əvvəl-neft ixrac edən ölkələr, məs., Səudiyyə Ərəbistanı) çox yüksək milli sərvət göstəricilərinə və həyat tərzinə malikdir. "Üçüncü dünyanın" bəzi ölkələri (yeni sənaye ölkələri-məsələn, Tayvan, Cənubi Koreya, Meksika, Türkiyə) səmərəli milli iqtisadi modellər yarada biliblər ki, bu da sənaye məhsulunun istehsal və ixracına əsaslanır. Amma "üçüncü dünyanın" əksər ölkələri kasıbdır və iqtisadiyyatın milli modellərinin formalaşması zamanı intensiv texnologiyalarda ixtisaslaşma ilə inkişaf etmiş ölkələrin "xammal əlavəsi" rolu arasında seçim etmək məcburiyyətində qalırlar.

İnkişaf etmiş ölkələrin hamısı keçmişdə müstəmləkəçi olmayıb (məsələn, ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya – Böyük Britaniyanın keçmiş müstəmləkələridir). Bu qrupda da elə dövlətlər var ki, bunların milli iqtisadi modelləri xammal resurslarının hasilat və ixracından çox asılıdır (Hollandiya, Norveç, Kanada). Amma onların milli iqtisadi modelləri, biir qayda olaraq, fond və elm tutumlu texnologiyaların prioritet inkişafına əsaslanır.

**ƏDƏBİYYAT**


1. Нуреев Р.М. Экономический строй докапиталистических формаций. Душанбе: Дониш, 1989, стр.89.
2. Sezilməyən lənət//Biznesin nəzəriyyə və praktikası / "Vedomosti" qəzetinin və "Smart Money" jurnalının materialları əsasında ali məktəblər üçün materiallar toplusu. 2007, №1, c.9 .
3. Коулман Дж. Капитал социальный и человеческий // Общественные науки и современность, 2001, №3, с.124.
4. Коулман Дж. Капитал социальный и человеческий // Общественные науки и современность.2001, №3, с.128.

## НАЦИОНАЛЬНЫЕ МОДЕЛИ ЭКОНОМИКИ И ИХ РОЛЬ В ПРИОБРЕТЕНИИ ПОКАЗАТЕЛЯ ЭФФЕКТИВНОСТИ

**М.Я.ГАМИДОВА**

**РЕЗЮМЕ**

В статье рассматриваются факторы, влияющиеся на формирование национальных и региональных моделей. Национальная модель экономики-это экономика суверенного государства, которая развивается в рамках стабильных институтов. Поэтому при типологизации моделей экономики в качестве критериев рассматривается национальная специфика объективно данных ресурсов и субъективно выбранные институты.

**Ключевые слова:** экономическая модель, человеческий капитал, социальный капитал, индекс развития человеческого потенциала

## NATIONAL MODELS OF ECONOMY AND THEIR ROLE IN THE ATTAINMENT OF EFFICIENCY INDEX

**M.Y.HAMIDOVA**

**SUMMARY**

The article discusses factors affecting the formation of national and regional models. The national model of the economy is the economy of a sovereign state, which develops within the framework of stable institutions. Therefore, in the typology of models of the economy national specificity of objective data and subjectively selected resource institutions are considered as criteria.

**Key words:** economics model, social investment, growth index, human potential